| | | | |
|---|---|---|---|
| **Ümumiməlumat** | **Fənnin adı, kodu və kreditlərin sayı** | VET 391 Yoluxmayan daxili xəstəliklər (körpə heyvanların xəstəlikləri ilə), 4 AKTS | |
| | **Departament** | Həyat Elmləri | |
| | **Proqram (bakalavr, magistr)** | Bakalavr | |
| | **Tədris semestri** | 2023/24-cü tədris ilinin yaz semestri | |
| | **Fənni tədris edən müəllim** | Məmmədov Rafail Əhməd oğlu | |
| | **E-mail:** | rafail.mammadov@khazar.org | |
| | **Telefon:** | Ev : 465 58 42, mobil: 070 640 44 00 | |
| | **Mühazirə otağı/Cədvəl** | Elşən Mehdiyev küç. (Bakıxanov kampusu) | |
| | **Məsləhət saatları** | | |
| **Prerekvizitlər** | Yoxdur | | |
| **Tədris dili** | Azərbaycan | | |
| **Fənnin növü** | Məcburi | | |
| **Əsas (dərsliklər) və əlavə ədəbiyyat** | 1. Baytarlıq təbabəti (sorğu kitabı) Bakı 2006<br>2. F.N. Nəsibov "Heyvanların daxili xəstəliklərinin kliniki diaqnostikası" dərslik Bakı -2009<br>3. T.B.İsgəndərov, F.N. Nəsibov "Xırda heyvanların xəstəlikləri" Bakı -2009<br>4. N. İ. Dilbazi "Körpə kənd təsərrüfatı heyvanlarının yoluxmayan xəstəlikləri" Bakı<br>5. Q.Q. Şerbakov , A. B Korobov , B. M. Anoxin " Heyvanların daxili xəstəlikləri . Profilaktika və terapiya" (rus dilində), dərslik ,Sank- Peterburq, Lan - 2021<br>6. F. P Petryankin , O. Y . Petrova " Körpə heyvanların xəstəlikləri" (rus dilində), dərs vəsaiti, Sank- Peterburq, Lan - 2021<br>7. İnternet resursları | | |
| **Kursun təsviri** | Heyvanlarn yoluxmayan daxili xəstəlikləri kursu tələbələrə yoluxmayan daxili xəstəliklərin ümümi profilaktikası və terapiyası, heyvanların dispanserizasiyası, ayrı-ayrı orqanlar sistemlərinin xüsusi patologiyası, terapiyası və profilaktikası, heyvanlarda maddələr mübadiləsi pozğunluqları və müxtəlif mənşəli zəhərlənmələr, körpə heyvan-ların yoluxmayan daxili xəstəlikləri, müalicə zamanı tətbiq olunan terapevtik texnika, həmçinin fitoterapiya, fizioterapiya vasitələri və metodları haqqında zəruri biliklər verir. | | |
| **Kursun məqsədi** | Bu fənnin öyrənilməsinin məqsədi tələbələrdə heyvanların yoluxmayan daxili xəstəliklərinin əmələgəlmə səbəbləri, patogenezi, klinik simptomları, diaqnostikası, müalicəsi və profilaktikası üzrə nəzəri və praktik bilikləri aşılamaqdan ibarətdir. | | |
| **Tədris (öyrənmə) nəticələri** | **Heyvanlarn yoluxmayan daxili xəstəlikləri kursunun öyrənilməsi nəticəsində tələbə aşağıdakıları bilməlidir:**<br>- yoluxmayan daxili xəstəliklərin etiologiyasını və təsnifatını,<br>- xəstəliklərin patogenezini və simptomlarını, qanın və diğər bioloji mayelərin normada və patologiya zamanı tərkib göstəricilərini;<br>- yoluxmayan daxili xəstəliklərə qarşı tətbiq olunan effektiv profilaktik və müalicəvi vasitələri;<br>- zəruri diaqnostik və terapevtik tədbirləri;<br>- xəstə heyvanlara qoyulmuş diaqnoza uyğun olaraq adekvat müalicə kürsunun təyin olunmasını;<br>- xəstə heyvalarla davranma zamanı şəxsi qiqiyena və texniki təhlükəsizlik qaydalarını.<br>Bu kursu bitirmiş tələbə heyvanlarda dispanserizasiyanın keçirilməsini,zəruri diaqnostik və terapevtik tədbirlərin vaxtında aparılmasını , terapevtik, diaqnostik və fizioterapevtik texnikadan səmərəli istifadəni , xəstə heyvalarla davranma zamanı şəxsi qiqiyena və təhlükəsizlik qaydalarına əməl etməyi bacarmalıdır. | | |
| **Tədris metodları** | **Mühazirə** | **x** | |
| | **Seminar** | **x** | |
| | **Qrup müzakirəsi** | **x** | |
| **Qiymətləndirmə** | **Komponentləri** | **Tarix/son müddət** | **Faiz (%)** |
| | **Aralıq imtahanı** | | **30** |
| | **Fəallıq** | | **5** |
| | **Davamiyyət** | | **5** |

<table>
<tr><td rowspan="4"></td><td>Tapşırıq və testlər (quiz1,2)</td><td></td><td>10</td></tr>
<tr><td>Kurs işi (Layihə1,2,3)</td><td></td><td>10</td></tr>
<tr><td>Final imtahanı</td><td></td><td>40</td></tr>
<tr><td>Yekun</td><td></td><td>100</td></tr>
<tr><td>Qaydalar (Tədris siyasəti və davranış)</td><td colspan="3">Davamiyyət<br>Dərslərə davamlı gəlmək çox vacibdir. Mühazirələr və dərslərdə iştirak sizin bilik və bacarıqlarınızı genişləndirir. Buraxılmış dərslərə görə və yerinə yetirmədiyiniz tapşırıqlar üçün siz məsuliyyət daşıyırsınız.<br>Sinif qaydaları və ya ümumi qaydalar:<br>- Hər dəfə sinfə vaxtında gəlmək;<br>- Müəllimdən 5 dəqiqə sonra sinfə gələnlərə qaib yazılır;<br>- Bütün tapşırıqları vaxtında təhvil vermək;<br>- Tapşırıqlarda plagiarizmdən istifadə etmək yolverilmızdir;<br>- Dərs kitablarından mütləq istifadə etmək! Əlavə mənbələr: internet materialları və əlavə kitablardan istifadə qiymətləndirilir;<br>- Qrup yoldaşlarınıza və müzakirələr zamanı onların fikirlərinə hörmətlə yanaşmaq;<br>- Sinifdə mobil telefondan istifadə etmək olmaz;<br>- Müəllimin sinifdə verdiyi tapşırıq və göstərişlər bütün tələbələr tərəfindən yerinə yetirilməlidir;<br>- Qrup işlərində bütün tələbələrin aktiv iştirakı vacibdir;<br>- Hər bir tələbəyə semestr ərzində könüllü olaraq dərsin müəyyən hissəsində müəllim kimi özünü sınamağa icazə verilir;<br>- Müəllimlə email vasitəsilə, yaxud iş saatlarında ofisdə (1-5-ci günlər səhər saat 9-dan axşam saat 6-ya qədər, 13:00-14:00 nahar vaxtı çıxılmaqla) əlaqə saxlamaq (axşam saat 9-dan sonra və bazar günlərində yazılan emaillara cavab verilmir);<br>- Müəllimə Whatsapp mesajları və SMS-lər yazmamaq.<br>Kursa verilən tələblər:<br>1. Dərs kitablarını və əlavə materialları oxumaq;<br>2. Sinifdəki bütün müzakirələrdə, diskussiyalarda və digər intellektual fəaliyyətlərdə aktiv olmaq;<br>3. Tapşırıqları tələb olunan vaxtda və formatda tərtib etmək;<br>4. Xəstəlik və fövqəladə hallardan başqa bütün dərslərdə iştirak etmək.<br>Bü kurs üçün bir aralıq və bir final imtahanı nəzərdə tutulmuşdur. Bütün imtahan sualları sylabusda yazılan mövzulara əsasən tərtib olunacaqdır.<br>Hər bir modulun sonunda tələbələrə bu modul daxilində keçirilən mövzularla bağlı quiz (test) keçiriləcək və hər biri 5 bal olmaq şərtilə ümumi 10 bal veriləcəkdir.<br>Tələbələrin bütün dərslərdə iştirakı vacibdir. Tələbələr müəyyən səbəblərdən dərslərin buraxılması (xəstəlik, ailə vəziyyəti və s.) haqqında məlumatı fakültə dekanlığına təqdim etməlidirlər. 25%-dən artıq dərs buraxan tələbələr imtahana buraxılmır.<br>Dərsə gecikən tələbəyə qayib yazılır. Buna baxmayaraq tələbə dərs saatına buraxıla bilər.<br>Dərsi pozmaq, dərsdən icazə istəmək, qrup işlərinin hazırlanması xaricində cib telefonundan istifadə etmək kimi davranışlar arzu olunmazdır.<br>Tələbələrin hazırladıqları təqdimatlarda mənbələrin göstərilməsi vacib şərtdir.<br>Tələbənin imtahanda iştirakı və ya imtahana buraxılması ilə bağlı məsələlər fakültə rəhbərliyi tərəfindən həll olunur. Aralıq və yekun imtahanı mövzuları tələbələrə imtahandan öncə verilir. Aralıq imtahanının sualları yekun imtahanında təkrarlanmır.<br>Aralıq və yekun imtahanları vaxtı tələbə tərəfindən imtahanın gedişini pozmaq və köçürmələr qadağandır. Bu qaydaya riayət etməyən tələbələrin imtahan işi ləğv olunur və tələbə 0 (sıfır) balla qiymətləndirilir.<br>Universitet qaydalarına müvafiq olaraq kursu bitirmək üçün ümumi müvəffəqiyyət faizi 60% və yuxarı hesab edilir. Kəsri olan tələbə bu fənni növbəti semestr və ya növbəti il götürə bilər.<br>Dərs zamanı dərs prosesini və etik qaydaları pozmaq qadağandır. Həmçinin tələbələr arasında icazəsiz müzakirələr və mobil telefondan istifadə qadağandır.</td></tr>
<tr><td colspan="4">Mövzular üzrə saatları bölgüsü və təqvim-tematik plan</td></tr>
</table>

| Həftə | Tarix | Mövzular və tədris sualları | Saat | Əsas (dərsliklər) və |
|---|---|---|---|---|

| | | | | əlavə ədəbiyyat |
|---|---|---|---|---|
| I | 13.02.24 | **Mövzu 1:** Sidik yolları xəstəliklərinin diaqnostikası, terapiyası və profilaktikası.Pielit və pielonefrit.Sidikdaşı xəstəliyi. Urosistit. Sidik kisəsinin iflici, parezi və spazması. | 2 | Ədəbiyyat – 1,2,3,4,6 |
| II | 20.02.24 | **Mövzu 2:** Qan xəstəliklərinin diaqnostikası, terapiyası və profilaktikası. Anemiyanın patoloji mahiyyəti və təsnifatı. Posthemorragik anemiya. Hemolitik anemiya Hipoplastik və aplastik anemiya. | 4 | Ədəbiyyat - 1,2,3,4,6 |
| III | 27.02.24 | **Mövzu 3**:İmmun sistemi xəstəliklərinin diaqnostikası, terapiyası və profilaktikası. İmmun defisitləri. Autoimmun xəstəliklər. Allergik xəstəliklər. | 2 | Ədəbiyyat - 1,2,3,4,6 |
| IV | 05.03.24 | **Mövzu 4:** Sress sindromunun diaqnostikası, terapiyası və profilaktikası. Stress və stress faktorların xüsusiyyətləri. Stressin mərhələləri. Texnoloji sressin növləri. Stress zamanı farmokoloji vasitələrin istifadəsi. | 2 | Ədəbiyyat - 1,2,3,4,6 |
| V | 12.03.24 | **Mövzu 5:** Sinir sistemi xəstəliklərinin diaqnostikası, terapiyası və profilaktikası. Baş beyinin hiperemiyası. Baş beyinin anemiyası. Hipertermiya. Günvürma. Sinir sisteminin iltihabi xəstəlikləri. | 4 | Ədəbiyyat - 1,2,3,4,6 |
| VI | 26.03.24 | **Mövzu 6:** Yemlərlə zəhərlənmələrin diaqnostikası, terapiyası və profilaktikası. Zəhərlənmələrin səbəbləri, növləri və gedişatı. | 2 | Ədəbiyyat - 1,2,3,4,6 |
| | | **QUİZ 1** | 1 | |
| VII | 02.04.24 | **Mövzu 7:** Kimvəyi maddələrlə zəhərlənmələrin diaqnostikası, terapiyası və profilaktikası. | 2 | Ədəbiyyat - 1,2,3,4,6 |
| | | **Aralıq imtahanı** | | |
| VIII | 09.04.24 | **Mövzu 8:** Heyvanlarda maddələr mübadiləsi pozğunluqlarının diaqnostikası, müalicəsi və profilaktikası. | 4 | Ədəbiyyat - 1,2,3,4,6 |
| IX | 16.04.24 | **Mövzu 9:** Heyvanlarda mikroelementozların və hipovitaminozların diaqnostikası, terapiyası və profilaktikası. | 2 | Ədəbiyyat -1,2,3,4,6 |
| X | 23.04.24 | **Mövzu 10:** Körpə heyvanlarda dispepsiya və qastroenterit xəstəliklərinin diaqnostikası, terapiyası və profilaktikası. | 4 | Ədəbiyyat - 1,5,6,7 |
| XI | 30.04.24 | **Mövzu 11:** Körpə heyvanlarda bronxopnevmoniyanın diaqnostikası, terapiyası və profilaktikası. | 2 | Ədəbiyyat - 1,5,6,7 |
| XII | 07.05.24 | **Mövzu 12:** Xəstə heyvanların müayinəsi və müalicəsi zamanı texniki təhlükəsizlik və şəxsi gigiyena qaydaları. Xəstə heyvanların təsbit olunması üsülları. | 4 | Ədəbiyyat - 1,2,3,4,6 |

| | | | | |
|---|---|---|---|---|
| XIII | 14.05.24 | **Mövzu 13:** Xəstə heyvanlara müalicə məqsədi ilə dərman preparatlarının daxilə verilməsi və onların parenteral yolla (dərialtı, əzələdaxili, venadaxili peritondaxili, traxeya-daxili) yeridilməsi qaydaları. | 2 | Ədəbiyyat - 1,2,4,6 |
| XIV | 21.05.24 | **Mövzu 14:** Fizioterapiya və fizioprofilaktika. Foto-terapiya. Elektroterapiya. Hidroterafiya. Ültrasəslə müalicə. | 4 | Ədəbiyyat – 1,2,3,4,6 |
| XV | 29.05.24 | **Mövzu 15:** Yoluxmayan daxili xəstəliklərin müalicəsində dərman bitkilərinin istifadəsi (Baytarliq fitoterapiyası). | 2 | Ədəbiyyat – 2,6,8 |
| | | **QUİZ 2** | 2 | |
| | | **Final imtahanı** | **45** | |

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**XƏZƏR UNİVERSİTETİ**

**TƏBİƏT ELMLƏRİ VƏ MÜHƏNDİSLİK FAKÜLTƏSİ**
**HƏYAT ELMLƏRİ DEPARTAMENTİ**

YOLUXMAYAN DAXİLİ XƏSTƏLİKLƏR (KÖRPƏ HEYVANLARIN XƏSTƏLİKLƏRİ İLƏ) -2

SİLLABUS

Tədris ili və semestri

2023/2024 Yaz

**Razılaşdırılmışdır** **Təsdiq edirəm**

**Departament müdiri:**
**b.ü.f.d. C.M. Eldarova**